# Milli mətbuatımız xalqın tribunasıdır

Bu il iyunun 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Azərbaycan Milli Mətbuatının 140 illik yubileyinin keçirilməsi haqqında» sərəncam imzalayıb. Sərəncamda bildirilir ki, hazırda Azərbaycanda 200-dən artıq qəzet, 100-ə yaxın jurnal. 50-dən çox televiziya və radiokanal, onlarla mətbuat yayımı şirkəti və jurnalist təşkilatı fəaliyyət göstərir. Həmçinin qeyd edilir ki, internetin sürətli inkişafı çoxsaylı informasiya resurslarının yaranmasına səbəb olub,ölkə əhalisi arasında internet yayımı 75 faizə çatıb, sosial şəbəkə istifadəçilərinin sayı 2 milyona yaxınlaşıb.

Dövlət başçısının həmin sərəncamının icrası istiqamətində çoxsaylı tədbirlər reallaşdırılır. Belə ki, tədbirlərdən biri isə qəzet redaksiyalarının maddi-texniki bazalarının möhkəmləndirilməsinə xidmət etdiyi üçün jurnalistlər tərəfindən daha maraqla qarşılanıb.

Azərbaycan milli mətbuatının əsasını qoyan ilk demokratik qəzetimizin adı «Əkinçi»dir. Azərbaycan mədəniyyət tarixinə də o bu adla daxil olmuşdur. Azərbaycan dilində ilk qəzetimiz, hər cür «rəngdən boyadan» azad olan, çox sadə xalq dilində yazılan və nəşr olunan bu qəzet həqiqətən də çox demokratik qayəli, demokratik məzmunlu qəzet idi. «Əkinçi» də həqiqətən də bütün digər problemlərlə yanaşı, əkinçilik, kənd təsərrüfatına dair çox qiymətli məlumatlar. şərhlər, tövsiyələr öz əksini tapmışdır. Bunların bir çoxu indi də öz əhəmiyyətini saxlamaqdadır.

«Əkinçi» qəzetinin banisi Azərbaycan ədəbi fikir və maarifçilik tarixində əbədi iz qoymuş mütəfəkkir şəxsiyyət Həsən bəy Zərdabidir. O, 1837-ci ilin iyun ayının 28-də Göyçay qəzasının Zərdab kəndində anadan olub. Milli mətbuatımızın yaradıcısı kimi bütün Şərqdə məşhurlaşan Həsən bəy Zərdabi 1861-ci ildə Tiflisdəki qəza gimnaziyasını bitirmişdir. Həsən bəy Zərdabini o dövrdə düşündürən əsas məsələrdən biri doğma millətini düçar olduğu savadsızlıqdan xilas etməkdən ibarət idi, O, bu nicat yolunu xalqın maarifləndirildməsində görürdü. Yalnız bu yolla milləti savadsızlıqdan qurtarmaq olardı. Həsən bəy Zərdabi 1861-1865-ci illərdə Moskva Dövlət Universitetində fizika-riyaziyyat fakültəsində təhsil alan ilk azərbaycanlı idi. O, burada təhsil alarkən «Moskovskiye Vedomosti», «Moskovskiye Qubernskiye vedomosti» qəzetlərinin fəal oxucu idi. Həsən bəy Zərdabinin «Əkinçi» qəzetini çap etdirmək ideyası məhz burada yaranmışdır. O, müstəmləkə şəraitində yaşayan xalqımızın milli varlığının qorunması, ona sahib çıxması kimi zəruri bir prosesi milli mətbuatsız mümkün saymırdı. Elə buna görə də böyük çətinliklərdən sonra 1875-ci il iyulun 22-də «Əkinçi» qəzetinin nəşr edilməsinə başladı. Doğrudur, «Əkinçi» iki il bir neçə gün ömür sürdü, cəmi 56 nömrəsi nəşr oldu. Lakin böyük çətinliklərlə ərsəyə gələn «Əkinçi» qəzeti can verməkdə olan bir milləti cəhalət yuxusundan oyatdı və milləti yaşamağa səslədi. Bu qəzetin mütərəqqi ideyaları car Rusiyasının hakim dairələrini narahat etdiyinə görə qəzet bağlanmışdı.

Həsən bəyin şəxsən özü tərəfindən yazılan «Daxiliyyə»dən əlavə «Əkinçi» də «Əkin və ziraət xəbərləri», «Elm xəbərləri», «Tazə xəbərlər» kimi bölmələri özünə yer etmişdi. Həsən bəy Zərdabinin dediyi kmi «Əkinçi» vəfat etdisə də, onun səpdiyi toxumlar sonralar cücərərək xalqı oyadan, ona dərdlərini anladan çoxsaylı qəzetlərin meydana gəlməsi ilə nəticələndi. «Şərqi Rus», «Həyat», «İrşad», «Tazə həyat», «Açıq söz» kimi milli demokratik nəşrlər yox yerdən millətdə istiqlal idealı formalaşdırdı, milli-mənəvi bəlaları hədəfə alıb, dil, vətən millət, tərəqqi şüarlarnı bayrağa çevirdilər.

Milli mətbuatımızın bir qolu olan «Qəbələ» qəzeti də bu gün «Əkinçi»nin ənənələrini davam etdirir, onu ideyalarını həyata keçirir. «Qəbələ» qəzetinin ilk nömrəsi 1933-cü ilin oktyabrında işıq üzü görmüşdü. İlk dəfə «Bolşevik mübarizi» adı ilə çıxan nəşr müxtəlif illərdə «Mübariz», «Qalibiyyət» adları ilə fəaliyyət göstərib.

Bu qəzet həmişə öz dəstxətti ilə seçilib, hadisə və sözlərə daim peşəkar yanaşma tərzi nümayiş etdirib, eyni zamanda rayon əhalisinin rəğbətini qazanıb. Qəzetə müxtəlif illərdə Nəriman Həsənov, Əhmədpaşa Hacıyev, Baba Qəhrəmanov, Ramazan İsmayılov, Əziz Əzizov, Tacəddin Məmmədov, Nadir Atakişiyev redaktorluq edib. Son dörd ilə yaxındır ki, qəzetin redaktoru Oqtay Məmmədovdur. Lakin bu illər ərzində dəyişən qəzetin adları və redaktorları olub. «Qəbələ» qəzetinə redaktorluq edənlərin böyük əməyi, yaradıcılıq bacarığı sayəsində qəzet zamanın sərt sınağından həmişə alnıaçıq çıxmışdır. Bu illər ərzində «Qəbələ» qəzeti ilk nömrəsindən başlayaraq doğru və ədalətli yol seçmiş, dövlətin və xalqın mənafeyinin qarantı olmuş, onların hüquqlarını, milli mənəvi dəyərlərini müdafiə etmiş və xalqın tribunasına çevrilmişdir. Bir məsələni də qeyd etmək yerinə düşər. Rayon icra hakimiyyətinin qəzet üzərində qayğı və diqqətini redaksiyanın kollektivi daim hiss edir və göstərilən qayğıdan ruhlanırlar.

Qəzetin ana xətti ölkəmizin sosial-iqtisadi inkişafında qazanılan uğurları, rayonumuzun nailiyyətlərini və bu gün qarşıda duran vəzifələri təbliğ etməkdir. Dəqiq, ədalətli, qərəzsiz, operativ mövqe tutan qəzet sosial ədalətsizliyə, saxtakarlığa, süründürməçiliyə bürokratizmə qarşı barışmaz olmuşdur. Bir sözlə, qəzet yaxşını-yaxşı, pisi-pis yazıb. «Qəbələ» qəzetinin səhifələrində kənd təsərrüfatının inkişafında, təhsil, səhiyyə, mədəniyyət müəssisələrində, sahibkarlıq mühitində qazanılan uğurlara, rayonumuzda keçirilən ölkə və beynəlxalq əhəmiyyətli tədbirlərə, qarşıda duran çox vacib məsələlərin həllinə geniş yer verilmişdir. Qabaqcıl təcrübənin təbliği, nöqsanların tənqidi qəzetin daimi mövzuları olmuşdur. «Qəbələ» bu gün də öz ənənəsinə sadiq qalaraq rayonda geniş miqyas almış, tikinti-abadlıq, quruculuq işlərinə, habelə kənd təsərrüfatında, səhiyyə, mədəniyyət, təhsil ocaqlarında qazanılan nailiyyətlərə geniş yer verir. Bu gün qəzet rayonun çoxsaylı oxucu kütləsinin stolüstü informasiya vasitəsinə çevrilmişdir.

**Aslan CƏLİLOV.**

# Moskvada Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın adından iftar verilib

Moskvada Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva adından iftar süfrəsi açılıb.

Tədbirdə Azərbaycan diasporunun və gənclərin nümayəndələri, müxtəlif millətlərin oruc saxlayan təmsilçiləri iştirak ediblər. Əvvəlcə qonaqlar "Ramazan çadırı" qarşısında açılan fotosərgi ilə tanış olublar. Ekspozisiya birinci Avropa Oyunlarına, Azərbaycanın memarlıq və dini abidələrinə həsr olunub. Sonra Müqəddəs Qurani-Kərimdən surə və iftar duası oxunub. Həmvətənlərimiz və Moskva müsəlmanları Azərbaycan milli yeməklərinə və şirniyyatına qonaq olublar.

Tədbirdə Azərbaycanın Rusiyadakı səfirliyinin müşaviri Aqşin Əliyev, "İxlas" Fondunun sədri Anar Məmmədov çıxış ediblər. Onlar müsəlmanları bayram münasibətilə təbrik edərək, Azərbaycanda müqəddəs Ramazanın necə qeyd edilməsindən danışıblar.

İftarda Azərbaycan və Bakıda keçirilən birinci Avropa Oyunları barədə videoçarx nümayiş etdirilib. "İxlas" Fondunun nümayəndələri Ramazan bayramına həsr edilmiş şeirlər oxuyublar. Müğənni Samir Salamın ifasında dini nəğmələr və xalq mahnıları səslənib. İştirakçılara "Baku", "Amor", "İrs" jurnallarının nüsxələri, Heydər Əliyev Fondu tərəfindən nəşr edilmiş Azərbaycan haqqında yeni mətbu məhsulları, ölkəmiz haqqında multimedia diskləri və Azərbaycanın gözəl mənzərələrinin təsvir olunduğu açıqcalar paylanıb.

İftar süfrəsini təşkil edən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevaya xüsusi minnətdarlıq bildirilib.

Xatırladaq ki, Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyi dalbadal 10 ildir Rusiya Müftiləri Şurasının "Ramazan çadırı" layihəsində fəal iştirak edir və möminlər üçün iftar süfrəsi açır.

**AzərTAc.**

# «Əkinçi»m mənim

Sən ilk qaranquşu oldun bu yurdun,
Adınla həmişə zirvədə durdun,
Xalqın həyatını yenidən qurdun.
Zülmətə nur saçan «Əkinçi»m mənim,
Səninlə hər arzum oldu çin mənim.

Düz sözçün başına oyun açdılar,
Qovdular, dalınca daim qaçdılar,
Qapını bağlayıb həddi aşdılar.
Günəştək parladın «Əkinçi»m mənim,
Səninlə hər arzum oldu çin mənim.

Sən sönməz Günəşsən- zülmətə nursan,
Məşəlsən, şimşəksən-işığı gursan,
Dünya məhvərindən oynayar vursan.
Bir tumdun, min oldun «Əkinçi»m mənim
Səninlə hər arzum oldu çin mənim.

Hər məzlum kimsənin kimsəsisən sən,
Haqqın ərşə çatan gur səsisən sən,
Zərdabi bağının meyvəsisən sən.
Həyata nur saçan «Əkinçi»m mənim,
Səsinlə hər arzum oldu çin mənim.

**Əhməd MƏMMƏDLİ,**
**Nic qəsəbəsi, müəllimi.**